# “AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

31 dekabr 2018-ci il tarixinə bitən il üzrə
**Maliyyə Hesabatları**

"AUDİT-SERVİS" MMC

AUDİT-SERVİS MMC

"AUDİT-SERVİS" LTD

Sumqayıt şəhəri, 45-ci məhəllə,
N.Nərimanov küçəsi

VÖEN: 2900205281

Tel: (018) 642-22-16

№ 009 "25" mart 2019 il

**"Azərbaycan İstilik Elektrik Stansiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinin Təsisçilərinə:**
**VÖEN: 9900017251**

**Rəy**

Biz "Azərbaycan İstilik Elektrik Stansiyası "ASC-nin (bundan sonra "Cəmiyyət" 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərərkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün və ədalətli təsəvvür yaradır.

**Rəy üçün əsaslar :**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz, hesab edirirk ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq maliyyə hesabatları standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlamasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Cəmiyyətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun olaraq aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

**" Audit-Servis" MMC-nin auditoru:** **O.Ə.Abdullayev**

«AUDIT SERVIS» Məhdud Məsuliyyətli Cəmiyyəti

## 31 DEKABR 2018-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ MƏCMU MƏNFƏƏT HAQQINDA HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2018-ci il tarixinə bitən il | 31 dekabr 2017-ci il tarixinə bitən il |
|---|---|---|
| Enerji satışı | 273,085 | 344,455 |
| Xərclər | | |
| Yanacaq | (218,683) | (301,358) |
| Köhnəlmə və amortizasiya | (29,006) | (28,817) |
| Təmir və texniki xidmət | (7,467) | (4,556) |
| İşçi heyətinin saxlanılması xərcləri | (5,025) | (4,240) |
| Mənfəət vergisindən başqa digər vergilər | (1,742) | (2,328) |
| Xammal və materiallar | (1,459) | (1,630) |
| Debitor borcların dəyərsizləşməsi ehtiyatında dəyişiklik | 1,305 | (96) |
| Digər əməliyyat xərcləri | (2,330) | (2,546) |
| *Əməliyyat gəliri / (zərəri)* | 8,678 | (1,116) |
| Maliyyə xərcləri, xalis | (3,717) | (3,407) |
| Xarici valyuta mübadiləsindən zərər, xalis | (7) | (5) |
| Əmlak, tikili və avadanlıq üzrə dəyərsizləşmə itkisi | (76,373) | - |
| Kreditor borcun silinməsi | 10,015 | - |
| *Mənfəət vergisindən əvvəl zərər* | (61,404) | (4,528) |
| Mənfəət vergisi gəliri | 12,386 | 645 |
| **CƏMİ İL ÜZRƏ MƏCMU ZƏRƏR** | **(49,018)** | **(3,883)** |

## "AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### 31 DEKABR 2018-Cİ İL TARİXİNƏ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
*(min Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| *Uzunmüddətli aktivlər* | | |
| Əmlak, tikili və avadanlıq | 316,043 | 409,939 |
| Əmlak, tikili və avadanlığın alınması üçün verilmiş avanslar | 17,398 | - |
| Digər uzunmüddətli aktivlər | 5,343 | 5,057 |
| *Cəmi uzunmüddətli aktivlər* | 338,784 | 414,996 |
| *Qısamüddətli aktivlər* | | |
| Mal-material ehtiyatları | 89,174 | 63,646 |
| Əvəzləşdirilən ƏDV | 15,048 | 15,992 |
| Ticarət və digər debitor borcları | 101 | 57,538 |
| Avans ödənişləri | 26,772 | 4,092 |
| Nağd pul və pul vəsaitlərinin ekvivalentləri | 216 | 136 |
| *Cəmi qısamüddətli aktivlər* | 131,311 | 141,404 |
| **CƏMİ AKTİVLƏR** | **470,095** | **556,400** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| *Kapital* | | |
| Nizamnamə kapitalı | 5,108 | 5,108 |
| Əlavə ödənilmiş kapital | 78,706 | 56,110 |
| Bölüşdürülməmiş mənfəət | 217,468 | 266,486 |
| *Cəmi kapital* | 301,282 | 327,704 |
| *Uzunmüddətli öhdəliklər* | | |
| Ssuda və borc vəsaitləri | 33,196 | 33,152 |
| Təxirə salınmış vergi öhdəlikləri | 11,933 | 26,394 |
| İstismardan çıxarma üzrə öhdəlik | 12,564 | 14,809 |
| *Cəmi uzunmüddətli öhdəliklər* | 57,693 | 74,355 |
| *Qısamüddətli öhdəliklər* | | |
| Ssuda və borc vəsaitləri | 43,492 | 40,549 |
| Ticarət və digər kreditor borcları | 65,250 | 99,264 |
| Cari mənfəət vergisi öhdəliyi | 2,056 | 7 |
| Mənfəət vergisindən başqa digər vergi öhdəlikləri | 322 | 14,521 |
| *Cəmi qısamüddətli öhdəliklər* | 111,120 | 154,341 |
| *CƏMİ ÖHDƏLİKLƏR* | 168,813 | 228,696 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **470,095** | **556,400** |

## 31 DEKABR 2018-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Əlavə ödənilmiş kapital | Bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2017-ci il tarixinə qalıq** | **5,108** | **56,110** | **270,369** | **331,587** |
| İl üzrə cəmi məcmu zərər | - | - | (3,883) | (3,883) |
| **31 dekabr 2017-ci il tarixinə qalıq** | **5,108** | **56,110** | **266,486** | **327,704** |
| İl üzrə cəmi məcmu zərər | - | - | (49,018) | (49,018) |
| Əlavə ödənilmiş kapital | - | 22,596 | - | 22,596 |
| **31 dekabr 2018-ci il tarixinə qalıq** | **5,108** | **78,706** | **217,468** | **301,282** |

# 31 DEKABR 2018-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2018-ci il tarixinə bitən il | 31 dekabr 2017-ci il tarixinə bitən il |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ UZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Müştərilərdən əldə edilmiş vəsaitlər | 359,748 | 335,727 |
| İşçilərə və təchizatçılara ödənişlər | (353,533) | (323,400) |
| Mənfəət vergisindən başqa vergi ödənişləri | (6,092) | (6,526) |
| Ana müəssisədən alınmış kapital | 20,612 | - |
| Əməliyyatlardan yaranan pul vəsaitləri | 20,735 | 5,801 |
| Ödənilmiş faiz | (2) | (15) |
| **Əməliyyat fəaliyyətindən əldə olunan xalis pul vəsaitləri** | **20,733** | **5,786** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ UZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Əmlak, tikili və avadanlıq üçün ödənişlər | (20,646) | (222) |
| **İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | **(20,646)** | **(222)** |
| **MALİYYƏ FƏALİYYƏTİ UZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Borc vəsaitlərinin qaytarılması | - | (5,557) |
| **Maliyyə fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | **-** | **(5,557)** |
| **NAĞD PUL VƏSAİTLƏRİ VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİNDƏ XALİS ARTIM** | **87** | **7** |
| **İLİN ƏVVƏLİNDƏ NAĞD PUL VƏSAİTLƏRİ VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **136** | **134** |
| Valyuta məzənnələrində dəyişikliklərin xarici valyutada saxlanılan nağd pul və pul vəsaitlərinin ekvivalentlərinə təsiri | **(7)** | **(5)** |
| **İLİN SONUNDA PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **216** | **136** |